# Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu artır

***"Əsrin müqaviləsi"nin imzalanmasından ötən müddətdə ölkə iqtisadiyyatının, xüsusən sənayenin, o cümlədən, neft sektorunun şaxələndirilməsi, beynəlxalq standartlara uyğun yenidən qurulması, innovativ texnologiyalarla təchiz olunması, yeni idarəçilik metodlarının mənimsənilməsi üçün geniş imkanlar yaranıb. Xarici neft şirkətləri ilə birlikdə axtarış-kəşfiyyat, qazma, tikinti və hasilat üzrə böyük iş həcmi görülüb və uğurlu nəticələr alınıb. Nəhəng "Şahdəniz" qaz-kondensat yatağı, orta səviyyəli "Əşrəfi" və "Qarabağ" yataqları aşkar edilib, "Abşeron" və "Ümid" yataqlarının işlənilməsinə başlanılıb.***




Hazırda ölkədə qeyri-neft sektorunun inkişafına mühüm təsir göstərən, bu sahəyə investisiya qoyuluşunda önəmli rol oynayan neft sənayesində müsbət nəticələr əldə edilir. Bu fikri bir qədər də konkretləşdirib deyə bilərik ki, Azərbaycanın qlobal brendi olan SOCAR şirkəti gəlirlərinin böyük hissəsini xarici ölkələrdə reallaşdırdığı əməliyyatlardan əldə edir, həmin gəlirləri ölkəmizin sosial-iqtisadi inkişafı naminə təkrar investisiyaya yönəldir, tabii ki, dövlət büdcəsinə ödənişləri də ilbəil artırır.

Fikrimizin təsdiqi olaraq SOCAR-ın ötən ilin əsas istehsalat göstəricilərinə diqqət yetirək. Bununla bağlı əvvəlcə onu qeyd edək ki, 2021-ci ildə vaksinasiya proseslərinin sürətlənməsi bütün dünyada olduğu kimi, Azərbaycanda da iqtisadi aktivliyi yüksəldib, müxtəlif sahələrdə canlanma yaradıb. Neft sektorunda enerji resurslarına tələbatla paralel olaraq neftin-qazın qiymətləri də əhəmiyyətli dərəcədə artıb. Qlobal miqyaslı müsbət trendlərdən yararlanan SOCAR xərclərin optimallaşdırılması və istehsalatda səmərəliliyin yüksəldilməsi məqsədilə görülən tədbirlər nəticəsində biznes əməliyyatlarının dayanıqlığını təmin etməyə nail olub. Bu, şirkətin əsas istehsalat göstəricilərində də əksini tapıb.

Ötən il SOCAR üzrə 62 min metrə yaxın qazma işləri həyata keçirilib ki, bu da 2020-ci ilin nəticələri ilə müqayisədə 10,3 faiz çoxdur. Qurumun müstəqil şəkildə və ya əsas payçı qismində istismar etdiyi yataqlarda 7,9 milyon ton neft, 7,9 milyard kubmetr qaz hasil olunub. Neft hasilatı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 6,5 faiz, qaz hasilatı isə 7 faiz çoxdur. Ölkə üzrə ümumi neft və qaz hasilatında da artım tendensiyası davam etdirilib. Bu, özünü qaz hasilatında xüsusilə qabarıq göstərib. 2020-ci illə müqayisədə qaz hasilatı 18,1 faiz artaraq, 43,9 milyard kubmetrə çatıb. İl ərzində Azərbaycanda 34,6 milyon ton xam neft hasil edilib. Neft hasilatında cüzi artım əsasən "OPEC+" razılaşması çərçivəsində könüllü məhdudlaşdırmaların tədricən aradan qaldırılması ilə bağlı olub.

SOCAR tərəfindən 2021-ci il ərzində xarici bazarlara ixrac edilən neft həcmləri təqribən 1 faiz artaraq 18,1 milyon ton təşkil edib. Bura şirkətin öz imkanları ilə çıxardığı neft həcmləri ilə birlikdə ölkəmizdə fəaliyyət göstərən beynəlxalq konsorsiumlar tərəfindən hasil olunan neftin Azərbaycan dövlətinə və SOCAR-a məxsus olan mənfəət payları da aiddir. Təbii qazın ixracatı isə 40 faiz artaraq 18,8 milyard kubmetrə çatıb.

Ötən il ölkəmizdə ümumilikdə 13 milyard kubmetrə yaxın təbii qaz istehlak olunub. Bu, əvvəlki illə müqayisədə 8,4 faiz çoxdur.

İl ərzində SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Zavodunda 6,7 milyon ton neft, Qaz Emalı Zavodunda isə 3,8 milyard kubmetr qaz emal edilib. Neft emalında 13,3 faizdən çox artım, qaz emalında isə nisbi azalma baş verib.

Onu da xatırladaq ki, son 10 ildə Azərbaycanın əsas ixrac məhsullarının tərkibində neft və neft məhsullarının xüsusi çəkisində dinamik artım nəzərə çarpır. "British Petroleum" kompaniyasının mutəxəssislərinin hesablamalarına görə, 2030-cu ilə qədər Azərbaycanın neft-qaz sənayesində hasilatın üstünlük təşkil edəcəyi, neftə olan tələbat artımının orta hesabla ildə 1 faizə yaxın olacağı proqnozlaşdırılır. Bütün bunlar nəzərə alınaraq, əvvəlki illərdə olduğu kimi, hazırda da neft-qaz hasilatının perspektiv təminatı üçün istehsalın modernləşdirilməsi diqqətdə saxlanılır.

Neft strategiyasının uğurla icrası nəticəsində son illərdə aşağıdakı mühüm tədbirlər reallaşdırılıb:

–2011-ci ildə Avropa İttifaqı və Azərbaycan tərəfindən Xəzərdən Avropaya birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən Birgə Bəyanat imzalanıb;

–hasil ediləcək təbii qazın genişləndirilmiş Cənubi Qafqaz Qaz Boru Kəməri, TANAP və TAP vasitəsilə ilkin olaraq Türkiyəyə və Cənubi Avropaya ixracı təmin edilib;

–enerji resurslarından səmərəli istifadə və enerji effektivliyinin artırılması üçün alternativ və bərpa olunan enerji mənbələri üzrə infrastruktur, bu sahədə özəl sektorla əməkdaşlıq genişləndirilib;

–Türkmənistanla "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi ilə bağlı Anlaşma imzalanıb.

Yeri gəlmişkən, yanvarın 30-da "Rossiya 24" telekanalında TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanın Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyinə və Prezident İlham Əliyevin 60 illik yubileyinə həsr olunmuş "Hakimiyyət formulu" verilişində də son illərdə Azərbaycanın neft strategiyasının uğurla icrası ilə bağlı diqqətçəkən məqamlar xatırladılıb. Respublikamızın dünyanın enerji təhlükəsizliyinə böyük töhfələr verən lider ölkələr sırasında oduğu bildirilib. Həmçinin 2017-ci il sentyabrın 14-də Bakıda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərin sulu hissəsinin birgə işlənməsi barədə yeni Saziş imzalanması, bu layihəyə 36 milyard dollardan çox sərmayə qoyulması, 500 milyon ton neft çıxarılması kimi önəmli faktlar diqqətə çatdırılıb. Eyni zamanda, Azərbaycanda təsdiqlənmiş qaz ehtiyatlarının 2,6 trilyon kubmetrə, proqnozlaşdırılan ehtiyatların isə təqribən 3 trilyon kubmetrə bərabər olması vurğulanıb.

Neftlə bağlı isə BP şirkətinin son dünya energetikası üzrə statistik icmalına əsasən qeyd edə bilərik ki, Azərbaycanın təsdiq edilmiş "qara qızıl" ehtiyatlarının həcmi 2,5 trilyon kubmetr təşkil edir.

Ölkəmizin zəngin neft-qaz ehtiyatlarının mövcudluğunu nəzərə alan Norveçin "Equinor" şirkətinin kəşfiyyat və hasilat üzrə icraçı vitse-prezidenti El Kuk mətbuata müsahibəsində Azərbaycanı dünya səviyyəli neft və qaz mənbəyi kimi gördüyünü bildirib: "Biz 30 il ərzində Azərbaycanda iki nəhəng yatağın – "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz"in işlənməsi ilə məşğul olmuşuq. Azərbaycanın gələcəyinə baxarkən, onu dünya səviyyəli neft-qaz mənbəyi kimi görürük. Biz tərəfdaşımız olan Azərbaycan Dövlət Neft Şirkəti vasitəsi ilə Azərbaycan dövləti ilə birlikdə dəyər yaratmaq üçün bu ehtiyatların işlənməsində rol oynamaq istəyirik".

E.Kuk daha sonra qeyd edib ki, gələcəkdə işlənən yataqlar həcminə görə keçmiş yataqlardan daha kiçik ola bilər: "Biz bu kiçik yataqların işlənməsində birlikdə daha çevik, ağıllı və sürətlə işləməliyik. Böyük yataqlarda istehsal azalanda belə, kiçik yataqların işlənməsindən, bu ölkəyə gəlir və zənginlik gətirəcəyindən əmin olmalıyıq".

İcraçı vitse-prezident əlavə edib ki, "Equinor" kəşfiyyat üçün dünya səviyyəli ölkə qismində Azərbaycana inanır: "Equinor" dünyanın ən böyük tədqiqatçılarından biridir və biz bununla qürur duyuruq. Bu il biz bütün dünyada 30-dan çox kəşfiyyat quyusu qazacağıq".

Xatırladaq ki, Norveçin "Equinor" şirkəti, həm də Azərbaycanın neft hasilatında önəmli rol oynayan "Qarabağ" yatağını kəşf edib.

Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan 120 kilometr şərqdə, açıq dənizdə yerləşən bu yataq müstəqillik dövründə kəşf edilən ilk neft yatağıdır. Yatağın ilkin qiymətləndirilən geoloji ehtiyatları 60 milyon ton neftdən çoxdur. Amma işlənmə dövründə bu rəqəmin artacağı gözlənilir. Bunu "Qarabağ" yatağının "Azəri", "Çıraq, və "Günəşli" yataqlarının yanında yerləşməsi deməyə əsas verir.

Yeri gəlmişkən, "Equinor" şirkəti Xəzər dənizində nəhəng "Azəri-Çıraq-Günəşli" (AÇG) yatağının da səhmdarıdır. Qeyd edək ki, ötən il AÇG yataqlarından hasilat təhlükəsiz şəkildə davam edib. Başqa sözlə, AÇG 27 illik zəngin salnaməsinə yeni nailiyyətlərlə imza atıb. Bunu Azərbaycan Respublikası Dövlət Neft Fondunun verdiyi məlumat da göstərir. Belə ki, ARDNF AÇG neft-qaz yataqları blokunun işlənməsi layihəsinin reallaşdırılması çərçivəsində 2021-ci ildə 5 milyard 968,4 milyon dollar gəlir əldə edib. Bu da həmin yataqlarda ilboyu hasilatın ahəngdar davam etdiyini göstərir.

Keçən il AÇG həmçinin özünün dünya səviyyəli karbohidrogen mənbəyi olduğunu bir daha nümayiş etdirdi. Belə ki, sentyabrın 18-də, "Əsrin müqaviləsi"nin 27-ci ildönümü və Neftçilər günü ərəfəsində AÇG mühüm bir qələbə qazandı. Bu yataqlar blokundan 4 milyardıncı barel neft hasil olundu.

Qeyd edək ki, AÇG layihəsi çərçivəsində 40 milyard dollar həcmində kapital investisiya qoyulub. Operator olan bp şirkətinin məlumatına görə, AÇG müqavilə sahəsində 136 neft hasilatı quyusu, 30 su və 8 qaz injektor quyusu istismar olunur.

Hazırda AÇG-də 8 platforma fəaliyyət göstərir. "Çıraq", "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli" və "Qərbi Çıraq" hasilat platformalarıdır. Digər iki platforma isə kompressor və suvurma qurğularıdır.

AÇG-də hasilat 1997-ci il noyabrın 7-də "Çıraq" platformasından başlayıb. Bu tarixi hadisə noyabrın 12-də platformada ümummilli lider Heydər Əliyevin iştirakı ilə rəsmi surətdə qeyd olunub. Həmin vaxtdan "Çıraq", onun ardınca da yüksək texnologiyalı digər müasir platformalar AÇG-dən hasilatı təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirirlər.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2022.- 4 fevral.- S.4.